

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

**Sayı: 72 (23.959)**

*20 aprel 2022-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


### *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Brüsseldəki üçtərəfli görüşün əhəmiyyətindən danışaraq vurğulayıb ki, Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycanla və Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir. Əfsuslar olsun ki, Ermənistanda onlar heç bu işin texniki-iqtisadi əsaslandırılmasına başlamayıblar, bu da prosesin ləngiyə bilməsini göstərir. Avtomobil yoluna gəldikdə, Azərbaycan tərəfindən fəal tikinti işləri gedir və yolun böyük hissəsi artıq inşa olunub. Lakin, təəssüf ki, Brüssel görüşü zamanı Ermənistanın baş naziri coğrafi koordinatları qeyd etməmişdir.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar deyib ki, Brüsseldəki görüş çox uğurlu oldu, səfərin də məqsədi razılaşdırılmış məsələlərin həyata keçirilməsi və davam etdirilməsinin təmin olunması üzərində işləməkdir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ), Misir Ərəb Respublikasının, Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.

## Muxtar respublikanın quruculuq xəritəsi genişlənir

Muxtar respublikanın bütün yaşayış məntəqələrini əhatə edən geniş və çoxşaxəli tikinti-quruculuq, abadlaşdırma işləri cari ildə də uğurla davam etdirilir.

Babək rayonunda həyata keçirilən tikinti-quraşdırma işləri 2022-ci ildə də davam etdirilir. Xatırladaq ki, ötən ilin son günlərində Cəhri qəsəbəsindəki məscid istifadəyə verilən zaman Ali Məclisin Sədri cənab Vasif Talıbov Cəhri-Gərməçataq kənd avtomobil yolunda aparılan yenidənqurma işləri ilə də maraqlanıb, müvafiq tapşırıqlar vermişdir. Verilən tapşırıqlara uyğun olaraq hazırda Cəhri qəsəbəsindən keçməklə bir neçə kəndi özündə birləşdirən əsas yol yatağı genişləndirilir, təhlükəsiz və rahat hərəkət təmin edilir. Əvvəllər müvafiq olaraq eni cəmi 4-5 metr olan yol yatağı hərəkətin intensivliyinə, bəzən də təhlükəsizliyinə mane olurdu. Görülən işlər çərçivəsində yol yatağı genişləndirilərək 12 metrə çatdırılıb. Yeni inşa olunan yol 4 zolaqdan ibarət olacaq.

Qəsəbədə infrastrukturun yenilənməsi işləri zamanı yol kənarlarındakı yararsız hasarlar, yardımçı tikililər plana alınaraq sökülür və daha uyğun yerlərdə tam yeniləri ilə əvəz olunur. Genişləndirilən yol yatağının kənarlarında su axını üçün kanallar və işıqlandırma dirəkləri quraşdırılır.

Bu ilin mart ayından etibarən Babək şəhərinin Heydər Əliyev prospektində rayonun məktəbdənkənar müəssisələri üçün binanın tikintisinə də başlanılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Babək Rayon İdarəsinin inşaatçıları tərəfindən müasir layihə əsasında tikilən bina üç mərtəbədən ibarət olacaq. Binanın birinci mərtəbəsində Texniki Yaradıcılıq Mərkəzi, sərgi salonu,



STEAM otağı, ikinci mərtəbədə Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, müəllimlər otağı, xalçaçılıq, toxuculuq və bədii tikmə, rəsm-vitraj sinifləri, qum sənəti otağı, arxiv, üçüncü mərtəbədə isə rəqs və gimnastika zalı, cihazların saxlanılması otağı, eləcə də digər siniflər fəaliyyət göstərəcək. Hazırda qəlib-beton işləri görülür.

Abadlıq-quruculuq işləri çərçivəsində Babək rayonunun Vayxır kəndində də kompleks quruculuq işlərinə başlanılıb. Hazırda kənddəki tam orta məktəb binası əsaslı şəkildə yenidən qurulur, kənd və xidmət mərkəzləri inşa olunur.

**Muxtar RZAZADƏ**

* * *



Naxçıvan şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər ötən illərdə olduğu kimi, bu il də uğurla davam etdirilir. Şəhərdə hər cür şəraitə malik yeni binalar inşa edilir, təmirə ehtiyacı olan ictimai yaşayış binaları isə əsaslı şəkildə təmir olunur.

Şəhərimizin Nizami küçəsində yer alan 48, 46 nömrəli yaşayış binaları əsaslı şəkildə təmir edilib, ümumilikdə, bərpa işləri tamamilə yekunlaşdırılıb. 44 nömrəli yaşayış binasında isə bərpa işləri sürətlə davam edir. Belə ki, beş mərtəbəli binanın qəzalı vəziyyətdə olan eyvanları və artırmaları sökülərək yenisi ilə əvəz edilir. Bununla belə, binanın təməli dəmir-beton konstruksiyalarla möhkəmləndirilir, dam örtüyü dəyişdirilir, kommunikasiya xətləri yenilənir, zirzəmi təmir olunur, giriş qapıları və bütün pəncərələr yenisi ilə əvəzlənir, dəhlizlərə isə üzlük daş plitələr düzülür. Binada hazırda son tamamlama işləri həyata keçirilir. Yaxın günlərdə 44 nömrəli yaşayış binası da müasir görkəmə qovuşacaq.

**Məcid RƏŞADƏTOĞLU**

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqı Şurasının birgə təşkilatçılığı, Azərbaycan Respublikası Mərkəzi Bankı, Azərbaycan Beynəlxalq Bankı ASC və "International Consulting Company"dən cəlb olunmuş əməkdaşların təlimçi

## Bank sektoru təkmilləşdirilir

qismində iştirakı ilə Ağbulaq İstirahət Mərkəzində "Bank-Təlim Məktəbi" layihəsi çərçivəsində muxtar respublikada fəaliyyət göstərən banklardan, ümumilikdə, 40 nəfər seçilmiş fəal gənc bank əməkdaşının cəlb olunması ilə tədbir keçirilmişdir.



Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev layihənin əhəmiyyətinə toxunaraq keçirilmiş təlimlərin muxtar respublikada bank sektorunun inkişafı baxımından həlledici rol oynadığını qeyd etmişdir. Bildirilmişdir ki, layihə çərçivəsində keçirilmiş təlimlərin məqsədi muxtar respublikada bank savadlılığının ictimai dəyər kimi tanınması, bank əməkdaşlarının maliyyə savadlılıq səviyyəsinin artırılması, həmçinin bank məsələləri ilə bağlı düzgün qərarların verilməsini dəstəkləmək, bank sektoru ilə əlaqəli bilik və bacarıqları daha da təkmilləşdirməkdən ibarət olduğunu vurğulamışdır.

Tədbirdə "International Consulting Company"nin direktoru Ramin Bayramov, Azərbaycan Respublikası Mərkəzi Bankının eksperti İbrahim Ağayev, Azərbaycan Beynəlxalq Bankı ASC-nin Rəqəmsal marketinq şöbəsinin müdiri Sərvər Cəfərov müasir bank məhsulları və xidmətləri, biznes etikası, bankçılıqda rəqəmsal trendlər və bank məhsullarının onlayn satışı haqqında məlumat vermişlər.

Təlimin sonunda bank əməkdaşları arasında sorğu keçirilmişdir.

**Xəbərlər şöbəsi**

## Kənd təsərrüfatının inkişafı diqqətdə saxlanılıb

*Kənd təsərrüfatı sahəsində qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası ilə bağlı maarifləndirmə tədbirləri mart ayında da davam etdirilib. Yaz-tarla işlərinə başlanılması ilə əlaqədar nazirliyin mütəxəssisləri tərəfindən payızlıq taxıllara yemləmə gübrəsinin verilməsi, yağ üçün qarğıdalı və günəbaxan bitkilərinin əkilib-becərilmə texnologiyaları, kartof və soğan bitkilərinin əkin sahələrinin hazırlanması və əkinlərin aqrotexniki qaydalara uyğun aparılması, eləcə də əkinlərdə alaq otlarına və zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında görülməsi mövzularında torpaq mülkiyyətçiləri və ailə təsərrüfatçıları ilə tarla seminar-müşavirələri və maarifləndirici tədbirlər keçirilib.*

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilib, muxtar respublikanın iqlim şəraitinə uyğunlaşan məhsuldar meyvə və aborigen meyvə sortlarından istifadə etməklə yeni meyvə bağlarının salınması və onlara qulluq edilməsi haqqında təsərrüfat sahibləri ilə görüşlər keçirilib. Meyvə və üzüm bağlarında aqrotexniki tədbirlərin vaxtında aparılması ilə bağlı məsləhətlər verilib.



Mütəxəssislər tərəfindən Babək rayonunun Cəhri qəsəbə sakini Nüsrət Qurbanova məxsus meyvə bağında müşahidələr aparılıb, qabaqlayıcı tədbir olaraq ağaclara insektisid çilənməsi işində təsərrüfat sahibinə köməklik göstərilib. Ay ərzində yeni meyvə bağları və üzümlüklərin salınması, meyvə ağaclarının xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri ilə əlaqədar 17 təsərrüfat sahibi tərəfindən nazirliyə edilən müraciətlərə uyğun lazımi tövsiyələr verilib.

Hesabat ayında torpaq mülkiyyətçilərinin iştirakı ilə müasir texnologiyalar tətbiq edilməklə əkinlərin keçirilməsinin üstünlükləri, səmərəliliyi və məhsuldarlığa təsiri barədə tarla seminar-müşavirələri keçirilib. Ötən ay "Araz" Elm-İstehsalat Birliyinin elmi şurasının iclası keçirilib, aparılan elmi-tədqiqat və təsərrüfat işlərinin gedişi müzakirə olunub. Birliyin əkin sahələrində və laboratoriyasında Naxçıvan Dövlət Universitetinin Kənd təsərrüfatı və təbiətşünaslıq fakültəsinin Torpaqşünaslıq və aqrokimya ixtisası üzrə təhsil alan IV kurs tələbələrinin istehsalat təcrübələri davam etdirilib. Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsi tərəfindən muxtar respublikanın rayonları üzrə torpaqların qida maddələri ilə təminedilmə dərəcələrinə uyğun olaraq hər bir bitki üçün mineral gübrələrin normaları hesablanaraq rayon və şəhər icra hakimiyyətlərinə göndərilib. Birliyin laboratoriyasına Culfa rayonunun Gülüstan kənd sakini, torpaq mülkiyyətçisi Mirsalim Seyidov tərəfindən gətirilən torpaq nümunəsində torpaq məhlulunun reaksiyası, karbonatlıq, humus və fosforun təyini analizləri aparılıb, nəticələri mülkiyyətçiyə təqdim edilib.



Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinə mülkiyyətçilər tərəfindən gətirilən toxumlar analizdən keçirilib, nəticəsi analiz aktı formasında onlara təqdim olunub. Ay ərzində idarəyə meyvə və üzüm sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə müraciət edən 42 təsərrüfat sahibinin əkin sahələrinə mütəxəssislər tərəfindən baxış keçirilib, onlara meyvə və üzüm bağlarında bordo, komrasor və volk kimyəvi preparatlardan istifadə edərək dərmanlanma aparılması tövsiyə edilib.

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, zoobaytar qaydalarına uyğun qulluq edilməsi, otlaqlardan səmərəli istifadə, yaz aylarında arıxanalarda baytarlıq tədbirlərinin aparılması, quşlar arasında xəstəliklərə qarşı profilaktik tədbirlərin görülməsi istiqamətində maarifləndirmə işləri davam etdirilib. Nazirliyin əməkdaşları Şərur rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları ilə birlikdə özünüməşğulluq proqramına uyğun olaraq dəvət edilmiş ailə təsərrüfatları ilə maarifləndirici görüşdə mal-qaranın, quşların və arı ailələrinin saxlanması və yetişdirilməsi ilə bağlı maarifləndirici mühazirə oxuyublar.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

“Sənaye ili” – 2022

# Sənaye iqtisadiyyatın lokomotividir

## Naxçıvanda bu sahə yeni inkişaf mərhələsinə qədəm qoyub

*İqtisadi inkişafın lokomotivi sayılan sənayenin inkişafının muxtar respublikamızda yeni mərhələyə qədəm qoyması, bu sahədə uzun illər aparılan islahatlar, yeni yaradılan istehsal müəssisələri və bununla həm də məşğulluğun təmin edilməsi belə deməyə əsas verir ki, bir vaxtlar aqrar region kimi tanınan qədim diyarımız artıq güclü sənaye potensialı olan bir məkana çevrilib. Fevralın 4-də Naxçıvan Biznes Mərkəzində muxtar respublika sahibkarları ilə keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bununla əlaqədar bildirdi ki, sənayenin uğurlu inkişafı birbaşa sahibkarlıq fəaliyyəti ilə bağlıdır. Məhz bu səbəbdəndir ki, muxtar respublikada istehsal edilən sənaye məhsulunun 93 faizi özəl bölmənin payına düşür. Sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulması və uğurların artırılması üçün 2022-ci il muxtar respublikada “Sənaye ili” elan edilmiş, bununla bağlı Tədbirlər Planı təsdiq olunmuşdur. “Sənaye ili”ndə muxtar respublikanın aid dövlət qurumları və sahibkarlıq müəssisələri qarşısında mühüm vəzifələr durur. Redaksiyamızın bugünkü qonaqları ilə söhbətimizi də bu istiqamətdə qurmağa çalışmışıq.*

İlk sualımız *Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru, dosent* **Mehriban İmanova**yadır.

***– Mehriban xanım, uzun illərdir ki, bir mütəxəssis kimi iqtisadiyyatın muxtar respublika modelinin, o cümlədən sənayenin inkişaf istiqamətlərinin araşdırılması ilə məşğulsunuz. Bu inkişafda başlıca amillər barədə nə deyə bilərsiniz?***

– Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı möhtəşəm milli inkişaf strategiyasının uğurla davam etdirildiyi muxtar respublika müstəqillik illərində diyarımız böyük sosial-iqtisadi nailiyyətlərə imza atıb və digər iqtisadi rayonlardan önə keçib. İqtisadi islahatları genişləndirən muxtar respublika bu müddət ərzində qarşıya qoyduğu sistemli, kompleks, strateji hədəflərin bütün komponentlərini tam uğurla reallaşdıra bilib. Bu hədəflərin reallaşmasında ölkədə aparılan iqtisadi siyasətin davamı kimi muxtar respublikamızda da tarazlı sosial-iqtisadi inkişafı tənzimləyən Dövlət proqramlarının uğurla icra edilməsi olub. Çünki sosial rifahla inkişafın sıx əlaqəsi, onun vahid məqsəd çərçivəsində inteqrasiyası iqtisadi siyasətlərə də dərindən təsir edir. Məqsəd muxtar respublikanın iqtisadi potensialının səfərbər edilərək tam hərəkətə gətirilməsindən, iqtisadi resursların dövriyyəyə cəlb olunmasından ibarət idi. Bu illər ərzində Naxçıvan siyasi və iqtisadi modernləşmənin həyata keçirilməsində çox qətiyyətli addımlar atdı, təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensial fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb edildi. Bunun məntiqi nəticəsi olaraq iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanıldı, bu vacib sahə yeni inkişaf mərhələsinə qədəm qoydu. Əsas hədəflər yeni meyarlara cavab verən yeni müəssisələrin yaradılması, onların texnoloji dəyişikliklərə, qlobal çağırışlara uyğun qurulması, istehsalın dinamikasına təsir edən yeni qabaqcıl müəssisələrdə tətbiq olunan texnologiyanın əhatə dairəsinin daha da genişləndirilməsindən ibarət idi. Görülən məqsədyönlü tədbirlərin nəticəsi 2004-cü illə müqayisədə 2021-ci ildə ümumi daxili məhsulun 13 dəfə, adambaşına düşən məhsul istehsalının 11 dəfə artması ilə özünü göstərdi. Davamlı dövlət dəstəyi sayəsində muxtar respublikanın sənaye quruculuğunda diqqətəlayiq uğurlara nail olundu və bu, sənaye məhsulları istehsalının həcminin 42 dəfə artması ilə səciyyələndi. Onu da qeyd edim ki, 2021-ci ildə muxtar respublikada sənayenin ümumi inkişafını əks etdirən əsas göstərici kimi 1 milyard 69 milyon 655 min 700 manat dəyərində məhsul istehsal olunub. Ümumi daxili məhsulun tərkibində də ilk yeri 27,1 faizlə sənaye sahəsi tutub.

***– Məhz bu amillər hesabına muxtar respublika sənayesində əldə edilən nailiyyətlər ilbəil artır, bütün sahələrdə əhalinin yerli istehsal məhsullarına olan tələbatının daxili imkanlar hesabına ödənilməsi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır.***

***Elnur Mahmudov*** – *Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi Sənaye şöbəsinin müdiri:*

– Bu deyilənləri digər faktlar da təsdiqləyir. Bu illər ərzində yüzlərlə sənaye müəssisəsi inşa edilib, bu sahədə güclü potensial yaradılıb. Bu cəhətdən ötən ili daha uğurlu illərdən biri kimi xarakterizə etmək olar. Bəhs edilən dövrdə qazanılmış uğurlar, iqtisadi artım tempi sənayenin yeni inkişaf mərhələsinə qədəm qoymasına gətirib çıxarıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci ili muxtar respublikada “Sənaye ili” elan etməsi əslində gözlənilən idi. Çünki muxtar respublika iqtisadiyyatında sənaye sektorunun inkişafı prioritet sayılır.

Ümumi daxili məhsul üzrə ən yüksək artım 2014-cü ildə 29,3 faizlə əldə edilib. Bu göstərici 2015-ci ildə 28,7 faiz, 2016-cı ildə 27,8 faiz, 2021-ci ildə isə 27,1 faiz olub. 2021-ci ildə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 3 milyard manatdan artıq təşkil edərək əvvəlki illə müqayisədə 2,4 faiz artıb. 2022-ci il üzrə muxtar respublikanın makroiqtisadi proqnoz göstəricilərində ümumi daxili məhsulun sahə strukturunda sənayenin ümumi payı 27,4 faiz planlaşdırılıb.

***Eltun İbrahimov*** – *AMEA Naxçıvan Bölməsi İqtisadiyyat şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru:*

– Muxtar respublikada sənaye müəssisələrinin sayının artırılması və onların infrastrukturunun genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Bunun ifadəsidir ki, sənayenin əsas hissəsini təşkil edən emal sənayesində çörəkbişirmə, şəkər, mineral su, spirtli içkilər, siqaret, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, sement, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metalərıtmə və onlarla digər istehsal sahələri yaradılıb. Bu müəssisələrdə daxili bazarla yanaşı, ixracyönümlü məhsullar da istehsal olunur. Ən əsası da son illərdə muxtar respublikanın böyük sənaye müəssisələrində daxili və xarici bazar üçün müasir standartlara uyğun olan mal və məhsullar özünə xeyli istehlakçı qüvvəsi qazanıb. Qeyd etmək lazımdır ki, bu sənaye müəssisələri xarici ölkələrdən gətirilmiş yüksəkkeyfiyyətli avadanlıqlarla təmin olunub.

Növbəti sualımızı diyarımızda sahibkarlıq fəaliyyəti ilə məşğul olan, bu sahənin inkişafına göstərilən qayğıdan bəhrələnən *“Şərur-3” Məhdud Məsuliyyəti Cəmiyyətinin mühəndisi* ***Fikrət Əhmədov***a ünvanlamaq istərdik:

***– Artıq tam formalaşmış, özünə geniş alıcı kütləsi qazanmış “Şərur-3” Məhdud Məsuliyyəti Cəmiyyətinin fəaliyyəti barədə nə deyə bilərsiniz?***

– Bu müəssisə yaradıldığı gündən hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Ümumi sahəsi 4950 kvadratmetr olan müəssisə




üçün yeni bina tikilib, ən müasir istehsal avadanlıqları quraşdırılıb. Sahibkarlığın İnkişafı Fondu tərəfindən ayrılan kredit və şəxsi vəsait hesabına yaradılan müəssisədə emal bölməsi, istehsal, qablaşdırma, meyvə və bitki cövhərlərinin saxlanılması sahələri, laboratoriya, iş otaqları, hazır məhsul və xammal anbarları vardır. İstehsal prosesi tamamilə avtomatlaşdırılıb.

İstehsal gücü saatda 2 min butulka olan müəssisədə 25-ə yaxın çeşiddə likörlər, araqlar və xüsusi araq istehsal edilir. Xammal kimi muxtar respublikada bitən və yetişən kəklikotu, baldırğan, zirinc, qara tut, heyva, şaftalı, ərik və albalıdan, eləcə də yüksəkkeyfiyyətli spirtdən istifadə olunur. Məhsul gümüş filtrdən keçirilərək standartlara uyğun süzülür. Müxtəlifölçülü şüşə butulkalarda qablaşdırılan içkilər lazımi laboratoriya analizlərindən keçirildikdən və keyfiyyətinə müvafiq qaydada zəmanət verildikdən sonra satışa buraxılır.

2015-ci il dekabr ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin istehsal prosesinin ardıcıl texnoloji tələblər əsasında aparılması, keyfiyyətə daim nəzarət edilməsi, daxili bazarın tələbatının ödənilməsi və ixrac imkanlarının yaradılması barədə verdiyi tapşırıqların yerinə yetirilməsi müəssisədə yeni uğurlar qazanılmasına stimul olub. Belə uğurlar muxtar respublikada bütün istehsal müəssisələrinə göstərilən qayğı hesabına qazanılır.

***– Bir az əvvəl ötən dövr ərzində muxtar respublikada çoxlu sənaye istehsalı müəssisələrinin fəaliyyətə başlaması və iqtisadiyyatımıza böyük gəlir gətirməsi barədə fikirlər səsləndi...***

***Elnur Mahmudov:***

– Bu istiqamətdə atılan addımların davamı olaraq ötən il muxtar respublikada 142 sənaye müəssisəsi açılıb, mövcud sənaye müəssisələrinin istehsal gücləri genişləndirilib. Bu müəssisələr arasında “Gəmiqaya Plastmas Kapsul və Qapaq” Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni çeşiddə plastmas kapsul və qapaq istehsalı sahəsi, Duzdağda açılan yeni şaxta, “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsalat korpusunda 7 müxtəlif təyinatlı müəssisə və “Naxplast” Məhdud Məsuliyyətli Cəmiyyətinin polietilen məmulatlar istehsalı sahəsi yerli tələbatın ödənilməsi ilə bərabər, ixrac potensialının gücləndirilməsinə, yeni iş yerlərinin açılmasına öz töhfəsini verib. 2021-ci ildə yeni sənaye sahələrinin yaradılması və fəaliyyətlərinin stimullaşdırılması məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 6 layihənin maliyyələşdirilməsinə 191 min 500 manat kredit ayrılıb. Sənayeni inkişaf etdirmək üçün isə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilib; cari ilin yanvar-mart aylarında da yeni sənaye sahələrinin yaradılması diqqətdə saxlanılıb, mebel, süd məhsulları, çörək istehsalı sahələri fəaliyyətə başlayıb, bəzi məhsulların emalı sahələrinin yaradılması davam etdirilib.

***– Ölkəmizdə yeni yaradılmağa başlayan sənaye parkları barədə fikirlərinizi bilmək istərdik.***

***Mehriban İmanova:***

– Ölkəmizdə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli Qərarı ilə Sənaye məhəllələri haqqında nümunəvi Əsasnamə təsdiq olunub.

Bu istiqamətdə görülən işlərin davamı olaraq Prezident cənab İlham Əliyev 2019-cu il 13 sentyabr tarixdə Naxçıvan Muxtar Respublikasında Şərur Sənaye Məhəlləsinin yaradılması haqqında Fərman imzalayıb.

Mülkiyyətinə görə dövlət tərəfindən qurulacaq və idarə olunacaq Şərur Sənaye Məhəlləsinin yaradılması göstərilən hərtərəfli xidmət, stimullaşdırma tədbirlərinin həyata keçirilməsi ilə rəqabətqabiliyyətli, daxili və xarici bazarın tələbatına uyğun məhsul istehsalına, istehsalın perspektiv fəaliyyətinə, istehsal vasitələrindən effektiv istifadəyə və beləliklə, sənayenin kompleks inkişafının tənzimləməyə imkan verəcək. Bu iqtisadi siyasətin reallaşması formalaşan təsərrüfat strukturlarının artması, kiçik sahibkarlığın genişlənməsi və dinamik inkişafı, özəl sektorun rolunun getdikcə artması ilə müşayiət ediləcək. Mövcud dünya standartlarına uyğun olaraq mütərəqqi texnologiyalar əsasında qurulmuş belə müasir müəssisələr yalnız iqtisadi cəhətdən deyil, həm də yeni iş yerlərinin açılması ilə sosial baxımdan da mühüm əhəmiyyət daşıyır.

Şərur rayonundakı 6 istehsal korpusundan ibarət sənaye məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və corab istehsalı sahələrinin yaradılması nəzərdə tutulub. Bu, həmin məhsulların idxalının azaldılmasında mühüm rol oynamaqla, ixracın və rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Beləliklə, Ali Məclisin Sədri cari ildə müasir çağırışlar nəzərə alınmaqla muxtar respublikanın aid dövlət qurumları və sahibkarlıq müəssisələri qarşısında konkret vəzifələr qoyub. Əminik ki, bu vəzifələrin uğurla həyata keçirilməsi və icrası “Sənaye ili”nə əhəmiyyətli töhfələr verəcəkdir.

***Eltun İbrahimov:***

– Müasir dünyada sənayenin inkişafı elmdən kənar təsəvvür oluna bilməz. İnkaredilməz faktdır ki, elmin və texnologiyanın inkişafına görə fərqlənən ölkələr sənaye məhsulu istehsalında xeyli önə çıxıblar. Sənaye-elm əlaqələrinin əsas önəmini qısa xarakterizə etsək, bu, rəqabətqabiliyyətli iqtisadiyyat, hərtərəfli böyümə, iş yerlərinin yaradılması, keyfiyyətli həyat, mühüm tədqiqatlara investisiyaların cəlb olunması deməkdir. Əgər elmə yönələn investisiyalar artırsa, bu universitetlər, tədqiqat institutları və özəl sektor arasında ciddi bağların formalaşmasına gətirib çıxarır. Muxtar respublikada da bu gün əsas diqqətdə saxlanılan məsələ gələcəkdə elmin nailiyyətlərinin istehsala və texnologiyaya tətbiq olunmasıdır. Yeri gəlmişkən qeyd edim ki, Naxçıvan Dövlət Universitetində Texnologiya parkının yaradılmasını elm və sənayenin qarşılıqlı vəhdətini göstərən ən bariz nümunə hesab edə bilərik. Məlum olduğu kimi, dünyanın bir sıra universitetlərində texnoparklar fəaliyyət göstərir. Muxtar respublikada bilikli və innovativ ideyalı gənclərin düşüncələrini və layihələrini dəstəkləmək üçün müxtəlif layihələr icra olunur, innovasiya laboratoriyaları yaradılıb istifadəyə verilir. Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi gənc və yeniyetmələrin istedadlarının önə çıxarılması, startap təşəbbüslərinin dəstəklənməsi və yeni ideyaların reallaşdırılması baxımından mühüm addım hesab olunur. İnnovativ cəmiyyətdə yeni texnologiyaların inkişafı ilə informasiya sektoru, insan kapitalı və ixtisaslı əmək amili mühüm əhəmiyyət kəsb edir, təhsilin davamlılığı ön plana çıxır, yeni informasiya magistralları yaradılır, elektron ticarət kimi yeni biznes növləri meydana gəlir. Sənaye sahəsində istifadə olunan insan və maşın gücü informasiya cəmiyyətində, tədricən, öz yerini düşüncəyə və ağlın gücünə verir.

***– “Sənaye ili”nə yeni töhfələr verəcək Şərur Sənaye Məhəlləsində yeni açılacaq istehsal sahələrindən biri də karton tara və kağız paket istehsalı sahəsi olacaq.***

***Fikrət Əhmədov:***

– Muxtar respublikada və ölkənin digər bölgələrində karton taraya və kağız paketə olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə fəaliyyət göstərəcək yeni istehsal sahəsi muxtar respublika sahibkarlığın inkişafına göstərilən daha bir qayğının ifadəsidir. “Şərur-3” MMC-nin nəzdində, Şərur Sənaye Məhəlləsində fəaliyyət göstərəcək müəssisənin günlük istehsal gücü birnövbəli iş rejimi ilə 52 min karton tara, 240 min ədəd kağız paketdir. Sahibkarlığın İnkişafı Fondunun güzəştli krediti ilə Türkiyə Respublikasından avadanlıq və Rusiya Federasiyasından xammal alınacaq. Bu istehsal sahəsinin yaradılmasında məqsəd daxili bazarın qorunması, yeni iş yerlərinin açılmasıdır. İlkin olaraq yeni istehsal sahəsində 6 işçinin çalışması nəzərdə tutulub. Sonrakı mərhələlərdə müəssisənin fəaliyyətinin genişləndirilməsi məqsədilə yerli mütəxəssis potensialından istifadə olunacaq. İstehsal zamanı ekoloji təhlükəsizlik tədbirləri diqqətdə saxlanılacaq.

*Sözsüz ki, 2022-ci ilin muxtar respublikada “Sənaye ili” elan olunması bu sahədə rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqinə, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulmasına və həmçinin yeni məhsul növlərinin istehsalına şərait yaradacaq, daxili bazarda belə məhsulların bolluğu təmin olunacaq. Ali Məclis Sədrinin dediyi kimi:* ***“Sənaye müəssisələri, ilk növbədə, daxili bazarı yerli istehsal məhsulları ilə təmin etməlidir. Bu gün ölkəmizdəki sabitlik və inkişaf, sahibkarlara göstərilən dövlət qayğısı, verilən kreditlər və daxili bazarın qorunması imkan verir ki, yeni sahibkarlar formalaşsın, kiçik müəssisələr inkişaf edərək böyük sənaye müəssisələrinə çevrilsinlər”.***

*Redaksiyamızın qonaqları ilə söhbətdə muxtar respublikamızda sosial-iqtisadi inkişafı çox düzgün təqdim edən bir ifadə bir daha təsdiqləndi: Naxçıvan modeli. Bu gün o modelin yeni səhifələri yazılmaqdadır və biz də vaxtaşırı olaraq bu mövzuya qayıdacağıq.*


**Muxtar MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrlə görüş



***"Sabahın müəllimi" layihəsi çərçivəsində ali təhsil müəssisələrinin pedaqoji profilli ixtisaslarının sonuncu kursunda təhsil alan təcrübəçi tələbələrlə görüş keçirilib.***

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, pedaqoji kadrların təkmilləşməsi istiqamətində atılan addımlar, keçirilən təlim və təcrübələr bu sahədə əhəmiyyətli uğurların qazanılmasına şərait yaradıb.

Bildirilib ki, 2018-ci ildən başlayaraq müəllimlərin işə qəbulunun müsabiqə yolu ilə aparılması, 2020-ci ildən isə müəllimlərin sertifikasiyaya cəlb olunması onların bilik və bacarıqlarının inkişafı üçün bir stimul olub.

Nazir hamilik çərçivəsində aparılan məqsədyönlü işlərin əhəmiyyətinə toxunaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə 32 pedaqoji profilli ixtisas Təhsil Nazirliyinə hamiliyə verilib. Hamilik çərçivəsində tələbələrin bilik və bacarıqlarının, təcrübələrinin artırılması üçün bir sıra tədbirlər həyata keçirilib.

Universitet məzunlarının iş təminatından da danışan təhsil naziri diqqətə çatdırıb ki, 2018-ci ildən müəllimlərin işə qəbulu üzrə keçirilən müsabiqələrdə 700-ə yaxın müəllim işlə təmin olunub.

Tədbirdə Təhsil Nazirliyi aparatının baş məsləhətçisi Aygün Məmmədova "Təhsil müəssisələrinə işə qəbul qaydaları", nazirliyin şöbə müdiri Abdulla Əsgərov "Stimullaşdırıcı tədbirlər və sertifikasiya qaydaları", nazirliyin aparıcı məsləhətçisi "Müəllimlərin etik davranış qaydaları" mövzularında təcrübəçi tələbələrə geniş məlumatlar veriblər.

Babək rayon Araz kənd ümumi tam orta məktəbinin tarix müəllimi muxtar respublikada müəllimlərə göstərilən dövlət qayğısından danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun Tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev muxtar respublikada hamilik çərçivəsində həyata keçirilən tədbirlərin tələbələrin gələcəyin mütəxəssisi kimi yetişməsində mühüm əhəmiyyət daşıdığını deyib.

Görüşdə tələbələrin sualları ətraflı cavablandırılıb.

Qeyd edək ki, görüşdən sonra tələbələr üçün STEAM Tədris Mərkəzində seminar keçirilib. Həmçinin tələbələrin Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzindəki innovativ dərnəklərə ekskursiyası da təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Klinik protokolların təqdimatı olub

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsi və Elmi tibbi şurası tərəfindən kliniki praktikada istifadə olunmaq üçün hazırlanan 73 klinik protokolun Yoluxucu Xəstəliklər Mərkəzində təqdimatı keçirilib.*



Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva səhiyyə sisteminin yenidən qurulmasını, maddi-texniki bazasının gücləndirilməsini, icbari tibbi sığortanın tətbiqini əhalinin sağlamlığının qorunmasında yeni mərhələ kimi dəyərləndirib. Qeyd edib ki, ixtisaslı kadrların hazırlanmasında, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılmasında, sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılmasında həkimlərin bilik və bacarıqlarının yüksəldilməsi mühüm rol oynayır. 2021-ci il yanvar ayının 1-dən icbari tibbi sığortanın muxtar respublika ərazisində tətbiq edilməsi, vətəndaşların etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərdən yararlanması, sığortanın xidmətlər zərfinə daxil olan tibbi prosedurlardan yararlanması klinik protokolların zəruriliyini daha da artırıb.

Nazirliyin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov müxtəlif ixtisaslı həkim və baş mütəxəssislərin birgə əməyi ilə hazırlanan protokollar barədə məlumat verib, onların müayinə və müalicə prosesində əhəmiyyətindən bəhs edib.

Qeyd edək ki, nazirliyin 26 fevral 2021-ci il tarixli kollegiyasında təsdiq edilən 73 klinik protokol "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində hər biri 150 tirajla nəşr olunaraq profillər üzrə müvafiq səhiyyə müəssisələrinə paylanılıb, müayinə və müalicə prosesində həmin protokollara istinad olunması barədə baş həkimlərə tapşırıqlar verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınmasına başlanılıb



Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçıların hərbi xidmətə yola salınmasına başlanılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il fevralın 18-də imzaladığı "Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncama əsasən 2004-cü ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla), 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşlarının müəyyən olunmuş qrafik əsasında xidmət yerlərinə göndərilib. Bu münasibətlə keçirilən tədbirdə Dövlət himni səsləndirildikdən sonra çıxışlar dinlənilib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mirzə Cəlilov 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin əhəmiyyətini vurğulayaraq ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu strategiyasının ölkəmizlə bərabər, muxtar respublikamızda da uğurla davam etdirildiyini diqqətə çatdırıb. Xidmət rəisi vurğulayıb ki, bu gün Silahlı Qüvvələrin bütün qoşun növləri sürətlə inkişaf etməkdədir. Muxtar respublikanın bütün hərbi hissələrində olan birlik, vətənpərvərlik və yüksək döyüş əhvali-ruhiyyəsi torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir. Xidmət rəisi sonda bu gündən Azərbaycan əsgəri adını daşıyan bütün çağırışçılara bu məsuliyyətli və şərəfli yolda müvəffəqiyyətlər arzu edib.

Həqiqi hərbi xidmətə çağırış və çağırışqabağı hazırlıq şöbəsinin rəisi, polkovnik-leytenant Vüsal Əliyev, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov və təhsil nazirinin müavini Ovni Muradov da çıxışlarında hərbi xidmətə yollanan gənclərə hərbi xidmət zamanı nizam-intizamlı olmalarının, vətənimizin, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmalarının, komandirlərin tapşırığını layiqincə yerinə yetirmələrinin vacibliyindən danışıblar.

Çağırışçı Ariz Cabbarov da, öz növbəsində, Vətənə xidmət edərək vətəndaşlıq borcunu yerinə yetirəcəyi üçün qürur hissi keçirdiyini bildirib.

Çağırışçılar həkim komissiyasından keçdikdən sonra yola düşüblər.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Əhalinin sosial müdafiəsinə xidmət edən tədbirlər uğurla aparılır

Muxtar respublikada sosial-iqtisadi sahədə həyata keçirilən məqsədyönlü islahatlar yeni istehsal sahələrinin və iş yerlərinin açılmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə səbəb olub. İqtisadi sahədə qazanılan nailiyyətlər sosial müdafiə tədbirlərinin əhatə dairəsinin genişlənməsinə və keyfiyyətinin daha da yaxşılaşmasına müsbət təsir göstərib. Bunun nəticəsidir ki, cari ilin birinci rübü ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun məcburi dövlət sosial sığorta haqları üzrə gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 112 min 700 manat və ya 10,8 faiz artıb. Ümumiyyətlə, ötən üç ay ərzində müvafiq qurum tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə 31 milyon 989 min 200 manat vəsait yığılaraq fondun xəzinə hesabına köçürülüb ki, bu da nəzərdə tutulan məbləğdən 11 faiz çoxdur. Bundan əlavə, fərdi uçot sistemi ilə əhatə olunanların sayında da xeyli artım var. Belə ki, cari ilin I rübü ərzində fərdi şəxsi hesab açanların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 48,1 faiz çox olub.

Qeyd edək ki, fonda daxilolmaların səviyyəsinin yüksək olması cari ilin ötən dövründə pensiya və müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsinə imkan yaradıb. Fond cari ilin birinci rübü ərzində pensiya təminatı və sosial sığorta sahəsində qarşıya qoyulan tapşırıqları yerinə yetirib. Qurumun büdcəsinin xərclər istiqaməti üzrə pensiya və məcburi dövlət sosial sığortahaqqı üzrə ödənişlərinin maliyyələşdirilməsinə cari ilin üç ayı ərzində 50 milyon 354 min manat vəsait yönəldilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz çoxdur. Cari ilin üç ayı ərzində 408 nəfərə əmək pensiyası təyin olunub, 4192 nəfərə isə məcburi dövlət sosial sığortahaqqı hesabına müavinət ödənilib.

Məlumat üçün bildirək ki, cari ilin ötən dövrü ərzində pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm islahatlar həyata keçirilib. Belə ki, minimum əmək pensiyasının məbləği 20 faiz artırılaraq 240 manata çatdırılıb. Həmçinin ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq əmək pensiyalarının sığorta hissəsinin məbləği 3,4 faiz indeksləşdirilərək artırılıb. Bundan başqa, sığorta prinsipi ilə pensiya alan əmək pensiyaçılarına rüb ərzində 50 manat məbləğində olmaqla il ərzində 200 manat, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına əmək pensiyası məbləğinin 10 faizi məbləğində aylıq maddi yardım ödənilir. Bundan əlavə, sosial sığorta sisteminin davamlı inkişafı məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərin də artımına səbəb olub. Belə ki, uşağın anadan olmasına görə birdəfəlik müavinətin məbləği cari ildən artırılaraq 200 manatdan 300 manata çatdırılıb. Sığortaolunanlar vəfat etdikdə onu dəfn etməyi öhdəsinə götürən şəxsə dəfn üçün müavinətin məbləği isə 300 manatdan artırılaraq 350 manat məbləğində müəyyən olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## *"Frankofoniya günləri"* çərçivəsində natiqlik müsabiqəsi

Naxçıvan Dövlət Universitetində "Frankofoniya günləri" çərçivəsində natiqlik müsabiqəsi keçirilib. Əvvəlcə Azərbaycan Fransız İnstitutunun direktor müavini Hakan (Conathan) Unlu Frankofoniya günlərinin məqsədi və beynəlxalq strategiyası haqqında məlumat verib. Hakan (Conathan) Unlu universitetə 70-ə yaxın fransızdilli kitab hədiyyə edib.

Fransa, Litva və Mərakeşin Azərbaycandakı səfirləri münsiflər heyəti olaraq müsabiqəyə onlayn qoşulduqdan sonra Azərbaycan Fransız dili İnstitutunun tələbələr arasında təşkil etdiyi natiqlik müsabiqəsinə start verilib. Müsabiqə yanlız Naxçıvan Dövlət Universitetinin Fransız dili ixtisasında bakalavr və magistr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Natiqlik müsabiqəsi 2 turda həyata keçirilib. 2-ci turda – yəni final mərhələsində 5 ən yaxşı namizəd seçilib.



Nəzərinizə çatdıraq ki, I yerdə qərarlaşan fransız dili müəllimliyi üzrə III kurs tələbəsi Sədaqət Babayeva cari ilin yayında yol xərci, yaşayış yeri, yarım pansion, fəaliyyətlərin pulsuz olması şərtilə Fransaya 2 həftəlik səyahət qazanıb. II yerə layiq görülən I kurs magistrant Aytac Ələkbərova Bakıda Azərbaycan Fransız dili İnstitutunda pulsuz fransız dili dərsləri almaq imkanı əldə edib. III, IV və V yerlərə layiq görülən tələbələr isə TotalEnergies tərəfindən təklif olunan kitablar da daxil olmaqla bir çox hədiyyələrlə mükafatlandırılıblar.

Universitetin ümumi işlər üzrə prorektoru Xəyal Camalov çıxışı zamanı münsiflər heyətinə minnətdarlığını bildirib.

Sonda tələbələrin sualları cavablandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Görkəmli şair, yazıçı, professor Zahid Xəlil ilə görüş keçirilib

*Naxçıvan Müəllimlər İnstitutunda yazıçı, şair, pedaqoq, filologiya elmləri doktoru, professor Zahid Xəlil ilə institutun Azərbaycan dili və ədəbiyyatı kafedrasının professor-müəllim heyəti və bir qrup tələbənin görüşü keçirilib.*



Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov qeyd edib ki, Zahid Xəlil Azərbaycan ədəbi-mədəni mühitində şair, nasir, həm də uşaq ədəbiyyatının istedadlı tədqiqatçısı kimi tanınmış alimdir. Zahid Xəlilin poeziyası bilgi vermək, uşaq dünyagörüşünü formalaşdırmaq, həyat təsəvvürlərini genişləndirmək gücü ilə səciyyələnir. Onun çeşidli poetik örnəkləri özünəməxsusluğu ilə diqqəti cəlb edir, şeir və hekayələri mövzusu ilə bir istiqamətdə ənənəyə bağlanır, digər baxımdan orijinal yaradıcı təfəkkürünün nümunəsi olaraq müstəsna təsəvvür formalaşdırır. Azad Novruzov bildirib ki, müasir Azərbaycan uşaq ədəbiyyatının dünya xalqlarına tanıdılmasında Zahid Xəlilin inkaredilməz xidmətləri vardır.

İnstitutun tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev və Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət İsmayılova çıxış edərək Zahid Xəlilin həyat və yaradıcılığı haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, onun yaddaqalan əsərləri və personajları, bir-birindən maraqlı hekayə və nağılları həmişə oxucular tərəfindən maraqla qarşılanıb. Xüsusilə Vətən müharibəsi dövründə Zahid Xəlil böyük qələbəni uşaqlarımıza tərənnüm edən "Dəmir yumruq dastanı" kimi möhtəşəm əsər yaradıb.

Sonra Zahid Xəlil çıxış edərək görüşün təşkilinə görə institut rəhbərliyinə təşəkkürünü bildirib.

Sonda institutun tələbələri Zahid Xəlilin şeirlərini ifa edib, ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## Əmək yarmarkaları təşkil edilib

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan şəhərində və Şahbuz rayonunda əmək yarmarkaları keçirilib.*



` Naxçıvan şəhərində təşkil edilən əmək yarmarkasında hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də iştirak edib. Burada işaxtaranlara, ümumilikdə, 91 müəssisədən 697 boş iş yeri təqdim olunub. Nəticədə, 44 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin edilib, 20 nəfərin özünüməşğulluq proqramına, 8 nəfərin isə peşə hazırlığı kurslarına cəlbi üçün qeydiyyatı aparılıb.

Şahbuz rayonunda təşkil edilən əmək yarmarkasına, ümumilikdə, rayon ərazisində fəaliyyət göstərən 20 müəssisədən 119 boş iş yeri təqdim edilib. Nəticədə, 17 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 11 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin əmək yarmarkasında peşə hazırlığı kurslarına 3 nəfər qeydiyyata alınıb.

Aprel ayı ərzində muxtar respublikanın şəhər və rayonlarında keçirilən əmək yarmarkalarında, ümumilikdə, işaxtaranlara 296 müəssisədən 1758 boş iş yeri təqdim edilib. Bu tədbirlərdə 215 nəfər müvafiq vakansiyalar üzrə işə göndərilib, 102 nəfərin özünüməşğulluq proqramına, 35 nəfərin isə peşə hazırlığı kurslarına qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Azərbaycan milli mətbuat tarixi və onun inkişafında "Molla Nəsrəddin" jurnalının özünəməxsus yeri və mövqeyi vardır. Mübaliğəsiz demək olar ki, "Molla Nəsrəddin" jurnalı publisistik püxtəlik, jurnalistika peşəkarlığı, müxbirlik məharəti, janr müxtəlifliyi, milli ideyalılığı, xalqa bağlılığı, xalq yaradıcılığı ənənələrinə sədaqəti, ana dilinə məhəbbəti və dilinin sadəliyi, eləcə də müasirliyi və bəşəri dəyərlərə hörməti ilə səciyyələnirdi. Mübarizə amalını "xalqın xoşbəxtliyi yoluna" həsr edən bu jurnal ilk nömrəsindən başlamış son nömrəsinə qədər – 25 il ərzində "vətən, millət, dil" ideyasına xidmət göstərmişdir.***

# Şərq aləminin ilk satira Günəşi



"Sizi deyib gəlmişəm" baş proqramı ilə xalqına və vətəninə məhəbbətdən yoğurulmuş jurnalın ətrafında çoxsaylı ziyalı və ədiblər toplaşaraq "Molla Nəsrəddin" adlı bir məktəbi də formalaşdırmış oldular. "Molla Nəsrəddin" özünün satirik ruhu, şirin yumoru, sadə dili və xalqın xoşbəxtliyi uğrunda mübarizə meyarı ilə milli yaradıcılıq ənənələrini yeni əsrdə bir qədər də inkişaf etdirmiş və zənginləşdirmiş oldu. Məhz onun xidmətləri sayəsində milli mətbuatımızda Azərbaycançılıq düşüncəli, kütləvi oxunaqlılığa malik yığcam publisistik janr nümunələri geniş meydan tapdı. Dövrünün görkəmli fikir adamı, söz və fikir zadəganı kimi geniş şöhrətə malik böyük ideoloq, məşhur "Füyuzat" jurnalının redaktoru Əli bəy Hüseynzadənin "Yaxşı yazırsınız... Belə də yazmaq olarmış" fikirləri də bu jurnalın milli mətbuat və jurnalistika tariximizdə tutduğu əhəmiyyətli yeri və oynadığı misilsiz xidmətləri etiraf edən mühüm faktdır. Bu baxımdan xalq yolunda xidmətləri misilsiz olan böyük ictimai xadim və görkəmli ədib Cəlil Məmmədquluzadə həm də milli mətbuatımızın inkişafı və intişarında mühüm xidmətləri ilə yadda qalmışdır. Bu mənada, bənzərsiz yumoristik jurnal olan "Molla Nəsrəddin" jurnalı "Dünyada sözdən böyük yadigar yoxdur", – deyən böyük ustad Cəlil Məmmədquluzadənin və onun yoldaşları olan mollanəsrəddinçi ədiblərin məhəbbətlə sevdikləri Azərbaycan xalqına və onun gələcəyinə miras qoyduqları ən böyük yadigar oldu. Görkəmli elm adamı, böyük mirzəcəlilşünas alim, akademik İsa Həbibbəylinin də yazdığı kimi: "Şərq aləminə ilk satira Günəşi ilk dəfə "Molla Nəsrəddin"dən doğmuşdur. Məhkum Şərqin oyanışı, dirçəlişi və istiqlalı uğrunda geniş, sistemli və ardıcıl mübarizə "Molla Nəsrəddin" dərgisi ilə başlamışdır. "Molla Nəsrəddin" dərgisi Azərbaycanda və türk-müsəlman dünyasında milli azadlıq və müstəqillik uğrunda mübarizənin ədəbiyyatda və mətbuatdakı sərkərdəsidir".

Böyük alim və publisist Məhəmməd ağa Şahtaxtılının "Şərqi-Rus" qəzetindən başlanan "jurnalistika məşqindən" sonra qəlbi xalqına xidmət amalı ilə döyünən dahi söz adamı Cəlil Məmmədquluzadə görkəmli ziyalı, əqidə və məslək dostu Ömər Faiq Nemanzadə ilə birgə dünyalarca məşhur olan "Molla Nəsrəddin" jurnalının əsasını qoymuşdur. Mirzə Cəlil isə deyildiyi kimi, bu jurnalın, o cümlədən mollanəsrəddinçi ədiblərin ağsaqqalı, yolgöstərəni və ideoloqu idi. 1906-cı il aprelin 7-dən (yeni təqvimlə 20-dən) nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı "Əkinçi"dən başlanılan milli mətbuatçılıq ənənələrini davam etdirməklə bərabər, Azərbaycan mətbuatı və jurnalistikasına yeni ənənələr gətirməyə və onu zənginləşdirməyə də müvəffəq oldu. Bu jurnalın xidmətlərindən biri də o idi ki, ətrafında birləşdirdiyi milli ziyalı və ədiblər kollektivindən Azərbaycan ictimai fikri və ədəbiyyatı tarixinə Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Əliqulu Qəmküsar, Məmmədsəid Ordubadi, Əli Nəzmi, Mirzə Əli Möcüz və başqa görkəmli ədəbi simalar bəxş etmişdir. Karikatura və şəkillərə də üstünlük verən "Molla Nəsrəddin" dərgisi həm də Azərbaycan incəsənətində karikatura janrının inkişafına böyük imkanlar açmış, Azərbaycanda satirik qrafika və karikatura sənətinin yaranmasına vasitə olduğu kimi, Oskar Şmerlinq, İozef Rotter, Əzim Əzimzadə, Seyidəli Behzad, İsmayıl Axundov, Hüseyn Əliyev, Qəzənfər Xalıqov kimi karikatura ustalarının da yaranması və meydana çıxmasına vəsilə olmuşdur. Xalqına bağlı insanların vətənə xidmət vasitəsinə çevrilən "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycanda deyil, maarif, nəşr və bir sıra ictimai inkişaf baxımından bir çox türk-müsəlman xalqlarını qabaqlamaqla Azərbaycan xalqının mübariz və vətənsevər ziyalılarının əldə etdiyi böyük nailiyyəti təzahür etdirirdi. Adından tutmuş üslubuna qədər xalq yaradıcılığı ənənələrinə dayanan "Molla Nəsrəddin" jurnalı bütün Şərq aləmi və Türk dünyasında ilk rəngli, şəkilli, karikaturalı yeni mətbuat orqanı idi. Xalq lətifələrinə dayanaraq yaranan felyetonlar adı "Molla Nəsrəddin" seçilən milli mətbuat orqanının "öz üzərinə gülmək" üslubuna uyğun ədəbi xidmət göstərirdi. Mollanəsrəddinşünasların yazdığı kimi də, "teleqram, atalar sözləri, poçt qutusu, bilməli xəbərlər" kimi məlum anlayışlar bilavasitə jurnalın kəşfi olaraq mətbuatda janr kimi yetkinləşmiş və jurnalın aparıcı janrlarına çevrilmişdir. Mətbuat aləminə "Molla Nəsrəddin" jurnalı "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!" müraciəti ilə gələrək, bütövlükdə, xalqı, müsəlman və türk aləmini ünvan seçmişdi. "Ax unudulmuş vətən, ax yazıq vətən! Dünya titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb dağılmış evlərini bina etməyə üz qoydular. Bəs sən hardasan, ay biçarə vətən!" – deyə həmvətənlərini oyatmağa səsləyən jurnal: "Dünya aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni... hamı buna nail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət. Dəxi bu dairələrdən kənar bəni-noibəşər üçün nicat yolu yoxdur" deməklə "gərək bir-birinizlə əl-ələ verəsiniz... yəni birləşəsiniz. Çünki vallah, billah, yer haqqı, göy haqqı, bundan başqa, sizdən ötrü nicat yolu yoxdur" fikrini təlqin edir, azərbaycanlıların həmrəyliyi və birliyi ideyası ilə çıxış edirdi. Təsadüfi deyil ki, "Sizi deyib gəlmişəm", "Azərbaycan", "Vətəndaşlar", "Cümhuriyyət" və sair kimi zəngin məqalə və felyetonlar Azərbaycan publisistikası və jurnalistikasının yeni məzmunda inkişafında əvəzsiz rola malik olmuşdur. "...Hər bir qələmin öz müqəddəs vəzifəsi var: birinci növbədə, millətin xoşbəxtliyi yolunda xidmət etmək", – deyə xalqının istiqlaliyyəti, milli oyanışı və inkişafı yolunda dönmədən xidmət göstərən nəhəng ictimai və ədəbiyyat xadimi Cəlil Məmmədquluzadə ilk sözündən tutmuş son sözünə qədər vətəndaşlıq məktəbi, vətənpərvərlik dərsliyidir.

Qısa fasilələrlə düz 25 il nəşr olunan və 748 nömrəsi çap olunan "Molla Nəsrəddin" jurnalı həm də yeganə mətbuat orqanı idi ki, bu qədər uzun müddətə nəşr olunmaqla özünəməxsus ənənələri ilə məktəb yaratmağa müvəffəq olmuş, həm də Azərbaycan ictimai fikir tarixində tənqidi-realizm cərəyanını formalaşdırmışdır (İkinci belə bir məktəb və romantizm cərəyanını yaratmış mətbuat orqanı "Füyuzat" idi). "Baraban" jurnalı rusca, "Şeypur" jurnalı isə azərbaycanca bu məşhur mətbuat orqanının mütərəqqi ənənələrini davam etdirərək ən çətin və məsuliyyətli vaxtlarda Azərbaycan xalqına milli-ideoloji cəhətdən xidmət göstərmişlər. "Molla Nəsrəddin" jurnalı konkret ictimai mühit və dövrün tələbləri ilə bağlı hərəkət edir, dövrün ictimai sifarişlərini əsasa alaraq milli istiqlal və siyasi bütövlük ideallarını da ifadə edirdi. Söz yox ki, ilk işə başlayanda "siyasət sözünün baş hərfi olan "s" hərfinin adını çəkməyin qorxulu olduğunu", – deyən ədib C.Məmmədquluzadə sonrakı dönəmlərdə ardıcıl olaraq siyasət məsələlərinə də biganə qalmamış, Azərbaycanın birliyi və bütövlüyü, milli istiqlalı, milli həmrəyliyi kimi vacib məsələləri də qələmə almışdır. Jurnal müəyyən fasilələrlə 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə 8 nömrə ilə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr edilmişdir. Ümumiyyətlə isə "Molla Nəsrəddin" jurnalı yeganə və ilk mətbuat orqanı idi ki, çap olunduğu yerlərin xəritəsi ilə də Azərbaycanın tarixi ərazilərini əhatə etmiş, sözün əsl mənasında, böyük və bütöv Azərbaycan coğrafiyası və ideyasını ortaya qoymuşdur. Vətən, dil və milli istiqlal məsələsi jurnalın əsas məqsədi və yaradıcılıq məramını təşkil edirdi. Və söz yox ki, məhz həyata keçirilən ardıcıl, məqsədəuyğun işlərin, əldə olunan milli-ictimai oyanış və birliyin nəticəsində 1918-ci ildə elan olunan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında "Molla Nəsrəddin" jurnalının da xidmətləri əvəzsiz idi. Məlum olduğu kimi, Sovet dövründə də fəaliyyətini davam etdirən "Molla Nəsrəddin" jurnalının Allahsızlar İttifaqının orqanına çevrilməsinə qarşı jurnalın naşiri və redaktoru Cəlil Məmmədquluzadə qəti şəkildə etiraz etmiş, bu və digər səbəblərdən yeni dövrün sərt tənqid, qınaq və təqiblərinə məruz qalmış, 1931-ci ildə "Molla Nəsrəddin" jurnalı öz fəaliyyətini dayandırmış, 1932-ci ildə isə böyük mütəfəkkir-yazıçı Cəlil Məmmədquluzadə dünyasını dəyişmişdir.

Bütün bu xüsusiyyətlərinə, Azərbaycan xalqının inkişafı yolunda göstərdiyi xidmətlərə görə xalqımızın ümummilli lideri Heydər Əliyev "Molla Nəsrəddin" jurnalını və onun redaktoru Mirzə Cəlil Məmmədquluzadə irsini yüksək qiymətləndirərək deyirdi: ***"Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir"***. Bu baxımdan ölkəmizdə, o cümlədən Vətəni Naxçıvanda böyük ədibin xatirəsinin əbədiləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2009-cu ildə 140, 2019-cu ildə isə 150 illik yubileyləri keçirilmişdir. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiqlədiyi Tədbirlər Planı da böyük ədibin xatirəsinə ehtiram göstərilməsi istiqamətində əlamətdar tədbirlərlə yadda qalmışdır. Ədibin Vətəni Naxçıvanda üç ev-muzeyi fəaliyyət göstərir. Böyük ənənələrə malik olan Naxçıvan Dövlət Musiqili Dram Teatrı da böyük ədibin adını daşıyır və qarşısında əzəmətli heykəli ucaldılıb.

*Hər il aprel ayında Naxçıvanda "Molla Nəsrəddin" günləri" keçirilir. AMEA Naxçıvan Bölməsində hazırlanaraq çap edilən "Cəlil Məmmədquluzadə: taleyi və sənəti", "Əliqulu Qəmküsar: taleyi və sənəti", "Məmməd Səid Ordubadi: taleyi və sənəti" kimi kitablar da ilk satirik milli mətbuat orqanı olan "Molla Nəsrəddin" jurnalı və onun aparıcı nümayəndələrinin xatirəsinə mühüm töhfələrdir. "Molla Nəsrəddin" jurnalı son dövrlərdə on cilddə yenidən nəfis tərtibatla nəşr edilərək ictimaiyyətə təqdim edilmişdir. Nəşr edilən "Cəlil Məmmədquluzadə 150" məqalələr toplusu da bu sahədə görülən qiymətli işlərdən biridir. Bütün bunlar təsdiq edir ki, böyük ideyalar carçısı "Molla Nəsrəddin" jurnalı, onun naşiri ustad Mirzə Cəlil və mollanəsrəddinçi məsləkdaşları Azərbaycançılıq məfkurəsinin mətbu bayraqdarları kimi bu gün də bizimlə qoşa addımlayır, həmişəyaşardırlar.*

**Ramiz QASIMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Paralimpiyaçıların muxtar respublika birinciliyi

Naxçıvan Muxtar Respublika Stadionunda sağlamlıq imkanları məhdud uşaqlar arasında atletikanın 100 metr məsafəyə qaçış növü üzrə muxtar respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Paralimpiya Federasiyası tərəfindən birgə təşkil olunan yarışda şəhər və rayonlardan, ümumilikdə, 26 paralimpiyaçı iştirak edib.Yekun nəticələrə əsasən Ümid Qulamov birinciliyin qalibi olub. Rabil İsmayılov yarışı ikinci, Sahil Rzayev isə üçüncü sırada tamamlayıb.



Mükafatlandırma mərasimində gənclər və idman naziri Ramil Hacı və federasiya sədri Nicat Babayev çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikada bədən tərbiyəsi və idmana göstərilən dövlət qayğısından bəhs edib, paralimpiya sahəsində icra olunan işlər barədə danışıblar. Qeyd olunub ki, məşqçi və idmançılar, o cümlədən bölmə rəhbərləri üçün seminar, təlimlər təşkil olunur, paralimpiyaçıların ölkə üzrə keçirilən təlim-məşq toplanışlarında, birinciliklərdə və Avropa səviyyəli yarışlarda iştirakı təmin edilir. Ötən il paralimpiyaçılarımız Azərbaycan birinciliklərindən 1 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıb. Çıxış edənlər idmana və idmançılara göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

Sonda ilk üçlükdəki idmançılar diplomla təltif olunub, bütün iştirakçılara həvəsləndirmə məqsədilə hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Mediasiya prosesinə hansı hallarda xitam verilir?*

***Cavab:*** Mediasiya prosesinə tərəflər arasında barışıq sazişi bağlandıqda, mübahisənin tərəflərin qarşılıqlı razılaşması ilə həllinin mümkünsüzlüyü mediator tərəfindən müəyyən edildikdə, tərəflər və ya onlardan biri mediasiya prosesindən imtina etdikdə, tərəflərin mediasiya prosesinin müddətinin uzadılmasına dair müraciətləri olmamışsa, mediasiya prosesinin müddəti, yəni 30 gün bitdikdə, tərəf olan fiziki şəxs öldükdə, hüquqi şəxs ləğv edildikdə və ya fəaliyyəti dayandırıldıqda, tərəflərdən biri məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə, tərəflərdən birinin fəaliyyət qabiliyyətli olmaması və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmə tərəfindən müəyyən edildikdə, mediator və ya mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən çıxarıldıqda, həmçinin mediator və ya mediasiya təşkilatı mediasiya prosesindən imtina etdikdə, "Mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı və ya "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı və ya "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı arayış tərtib olunduqda xitam verilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## "Naxçıvan Aqrolizinq" ASC-nin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 18 aprel tarixli Sərəncamına uyğun olaraq "Naxçıvan Aqrolizinq" ASC tərəfindən yerinə yetiriləcək xidmətlərin qiymətləri təsdiq edilmişdir. Göstərilən xidmətlər aşağıdakılardır.

| S/№ | Xidmətin adı | Ölçü vahidi | Xidmətin qiyməti (manatla) |
|---|---|---|---|
| 1. | Şumlama | hektar | 50,00 |
| 2. | Tapanlama (malalama) | hektar | 20,00 |
| 3. | Arx açılması (mora) | hektar | 12,00 |
| 4. | Çizel-şırımaçma | hektar | 25,00 |
| 5. | Kəssəkəzmə | hektar | 60,00 |
| 6. | Taxıl səpini | hektar | 20,00 |
| 7. | Taxıl səpini (şırımaçanla) | hektar | 35,00 |
| 8. | Taxıl biçini | hektar | 50,00 |
| 9. | Qarğıdalı əkini | hektar | 50,00 |
| 10. | Qarğıdalının kultivasiyası | hektar | 50,00 |
| 11. | Qarğıdalı biçini | hektar | 60,00 |
| 12. | Kartof əkini | hektar | 60,00 |
| 13. | Kartofun dibdoldurması | hektar | 60,00 |
| 14. | Kartofun çıxarılması | hektar | 60,00 |
| 15. | Ot biçini | hektar | 35,00 |
| 16. | Ot biçini (özüyeriyənlə) | hektar | 35,00 |
| 17. | Ot və küləşin preslənməsi | 1000 ədəd | 300,00 |
| 18. | Dırmıqlama | hektar | 20,00 |
| 19. | Məhsulun daşınması | 15 km-dək | 25,00 |
| 20. | Gübrə səpini | hektar | 14,00 |
| 21. | Kimyəvi mübarizə tədbirləri | hektar | 20,00 |
| 22. | Bağçılıqda cərgələrarası kimyəvi mübarizə tədbirləri | hektar | 35,00 |

### *Bildiriş*

Gəmiqaya Holdinq Şirkətlər İttifaqı "Naxçıvan Sement Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək "Gəmiqaya Sement Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

**ŞƏRQ** *qapısı*
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Səbuhi Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 337**